Azərbaycan Respublikasının
Dövlət Miqrasiya Xidməti (DMX)

BMT-nin Qaçqınlar üzrə
Ali Kommisarlığı
(BMT QAK)

# Azərbaycanda Vətəndaşsızlıq: Nailiyyətlər və hədəflər



Dekabr 2020

# Azərbaycanda Vətəndaşsızlıq:
# Nailiyyətlər və hədəflər

**Dekabr 2020**

**Bakı 2021**

# Ön söz

Hər bir şəxs müasir insan hüquqlarının təməlini təşkil edən İnsan hüquqları haqqında Ümumi Bəyannamədə təsbit olunmuş fundamental hüquqlardan biri olan vətəndaşlıq hüququna malikdir. Həmin sənəddə həmçinin deyilir ki, heç kim özbaşına olaraq vətəndaşlıqdan və vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz. Vətəndaşlıq təkcə identikliyi bildirmir, həm də dövlət tərəfindən vətəndaş üçün təmin edilməli olan bir sıra hüquqların qorunmasını bildirir. Vətəndaşlıq həm də "hüquqlara malik olmaq hüququ" kimi xarakterizə olunur.



Vətəndaşlığın əldə edilməsi, itirilməsi və ya vətəndaşlıqdan çıxma ilə bağlı beynəlxalq və milli hüquqi sənədlərin olmasına baxmayaraq, hələ də dünyada vətəndaşsızlıq riski altında olan və ya vətəndaşlığı olmayan milyonlarla insan var. Vətəndaşsızlığın köklü səbəbləri fərqli ola bilsə də, nəticəsi eynidir, yəni nəticədə insanlar əziyyət çəkir.

Bu gün vətəndaşlıqla bağlı beynəlxalq hüquq və təcrübənin inkişafına baxmayaraq, beynəlxalq ictimaiyyət çoxsaylı vətəndaşsızlıq situasiyaları ilə qarşılaşmaqda davam edir. Vətəndaşlığı olmayan şəxslərin rəsmi sayı 3,9 milyon olsa da, məhdud məlumatlar əsasında təxmini hesablamalara görə çox zaman dünya üzrə 10 milyon rəqəmi göstərilir. Vətəndaşlığı olmayan şəxslərin həqiqi sayı barədə dolğun məlumatların toplanması uzun müddət davam edən problem olmuşdur, ona görə ki, bəzi ölkələr arasında vətəndaşsızlıq anlayışı ilə bağlı fikir ayrılığı olmuş və bəzi hökumətlər vətəndaşlığı olmayan şəxslərin sayı barədə məlumatları açıqlamağa meylli olmamışlar. Vətəndaşlığı olmayan şəxslərin statusu haqqında 1954-cü il Konvensiyası və Vətəndaşsızlıq hallarının azaldılması haqqında 1961-ci il Konvensiyası hələ də çox sayda dövlətlər tərəfindən ratifikasiya olunmamışdır.

BMT Baş Assambleyası dünyada vətəndaşsızlıq hallarının qarşısını almaq və onları azaltmaq, eləcə də vətəndaşlığı olmayan insanların hüquqlarını qorumaq vəzifəsini rəsmən BMTQAK-a həvalə etmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası vətəndaşsızlığa dair hər iki Konvensiyanı imzalamışdır. 2015-ci ildə hökumət BMTQAK tərəfindən həyata keçirilən, vətəndaşsızlıq hallarına son qoymaq məqsədi daşıyan onillik kampaniyaya qoşulmuşdur. Ən son əhali siyahıyaalmasının hazırlıq mərhələsində BMT qurumları 2019-cu il siyahıyaalması nəticəsində ölkədə vətəndaşsızlıqla bağlı vəziyyətin daha yaxşı öyrənilməsi üçün Azərbaycan hökumətinə texniki və peşəkar dəstək göstərmişlər. 2019-cu ildə

Azərbaycan hökuməti qeydiyyata alınmış bütün vətəndaşlığı olmayan şəxsləri üç il ərzində naturalizasiya edəcəyini vəd etmişdir. Bu vədin yerinə yetirilməsini monitorinq etmək üçün Vətəndaşsızlıq üzrə xüsusi İşçi Qrupu yaradılmışdır. Ümid edirəm ki, Azərbaycan hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının birgə səyləri ölkədə vətəndaşsızlığın kökünün tamamilə kəsilməsinə gətirib çıxaracaqdır.

Real həyat hekayələrini simalar və adlarla dolğunlaşdıran bu jurnal uzun müddət vətəndaşsızlıq durumunda olma təcrübəsini yaşamış və nəhayət bu durumun dayanıqlı həlli yolunu tapmış insanların nümunələrini təqdim edir. Bu nəşr həm də hökumət və BMTQAK tərəfindən Azərbaycan Respublikasında vətəndaşsızlıq durumunun həlli istiqamətində konkret nailiyyətləri və davamlı səyləri əks etdirir.

**Qulam İsakzai**
BMT-nin rezident əlaqələndiricisi
Bakı, Azərbaycan

# Dövlət Miqrasiya Xidməti, Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Rza Talıbovun vətəndaşsızlıq məsələləri ilə əlaqədar müsahibəsi



***Rza müəllim, Dövlət Miqrasiya Xidmətinin vətəndaşlıq məsələləri üzrə həyata keçirdiyi fəaliyyət nələrdən ibarətdir?***

- Dövlət Miqrasiya Xidmətinin vətəndaşlıq məsələlərində iştirakı cənab Prezidentin 6 mart 2008-ci il tarixli Fərmanı ilə müəyyən edilmişdir. Hazırda Xidmət Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, bərpa və Azərbaycan Respublikasının vətəndaşlığından çıxma ilə vəsatətlərə, habelə Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi ilə bağlı işlərə baxılmasında iştirak edir. Həmçinin, Xidmət Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyəti müəyyənləşdirir. Bundan əlavə, vətəndaşsızlıq hallarının azaldılması istiqamətində mütəmadi olaraq zəruri tədbirlər görülür.

***Vətəndaşlıq hüququnun mahiyyəti və önəmi barədə məlumat verərdiniz.***

- Qeyd olunmalıdır ki, vətəndaşlıq hüququ mühüm insan hüquqlarından biri olmaqla şəxsin hüquqi statusunu müəyyən edir. Şəxs öz hüquq və azadlıqlarını yalnız tam həcmdə o zaman həyata keçirə bilər ki, o, hər hansı bir dövlətin vətəndaşı olsun və onun hüquqlarının həyata keçirilməsinə dövlət təminat versin. Beləliklə, vətəndaşsızlıq vəziyyətində qalmaq şəxslərin gündəlik həyatda bir sıra çətinliklərlə qarşılaşmalarına, habelə təhsil, əmək və sosial təminat hüquqlarından istifadə etmələrini məhdudlaşdırır.

***Kimlər Azərbaycan Respublikasının vətəndaşı sayılırlar?***

“Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanunun 1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsinə görə, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

“Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikası Qanunun 5-ci maddəsi Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyət adlanır. Həmin maddənin tələbinə əsasən aşağıdakı şəxslər Azərbaycan Respublikasının vətəndaşları sayılırlar:

- Bu Qanununun qüvvəyə mindiyi günədək (1998-ci il oktyabrın 7-dək) Azərbaycan Respublikasının (və ya Azərbaycan SSR-in) vətəndaşlığında olmuş şəxslər , o şərtlə ki, Azərbaycan Respublikasının vətəndaşı bu Qanunun qüvvəyə mindiyi günədək Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olsun;
- 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının və ya başqa dövlətin vətəndaşı olmayan, lakin Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər;
- 1988-ci il yanvarın 1-dən 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqınlar;
- “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq surətdə Azərbaycan Respublikası vətəndaşlığını əldə etmiş şəxslər.

***Vətəndaşlıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi vətəndaşsızlıq hallarının həlli üçün hansı hüquqi təminatlar nəzərdə tutur?***

“Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə əsasən 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının və ya başqa dövlətin vətəndaşı olmayan, lakin Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər və 1988-ci il yanvarın 1-dən 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqınlar Azərbaycan Respublikasının vətəndaşları sayılırlar.

Bundan əlavə, sözügedən Qanunun 12-ci maddəsinin üçüncü hissəsinə əsasən Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni vətəndaşlığı olmayan şəxs olan uşaq və 13-cü maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində olan, hər iki valideyni naməlum uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilir. Bu isə o deməkdir ki, mövcud qanunvericilik vətəndaşsızlıq halında doğulma hallarına yol açmır.

“Vətəndaşsızlığın ixtisar edilməsi haqqında” 1961-ci il 30 avqust tarixli Konvensiyanın müddəaları nəzərə alınmaqla hazırlanmış Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 mart tarixli 84 nömrəli qərarı ilə “Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası”nın tələbləri barədə məlumat verilmişdir. Belə ki, adıçəkilən qaydanın 4.3-cü bəndində “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” qanununun qüvvəyə mindiyi günədək (1998-ci il oktyabrın 7-dək) Azərbaycan Respublikasının (və ya Azərbaycan SSR-in) vətəndaşlığında olmuş və ölkənin ərazisini tərk etməyən şəxslərin bu qanun qüvvəyə mindiyi günədək respublikamızda yaşayış yeri üzrə qeydiyyatda olmamaları onların vətəndaşsızlığına səbəb olduqda, həmin şəxslərin Azərbaycan vətəndaşlığına mənsubiyyətlərinin tanınması kimi mühüm əhəmiyyət kəsb edən müddəa öz əksini tapıb. Bunu vətəndaşsızlıq hallarının azaldılması və bu halları yaradan səbəblərə qarşı mübarizə sahəsində dövlətimiz tərəfindən həyata keçirilən məqsədyönlü və humanitar siyasətin nəticəsi kimi qiymətləndirmək olar.

Bundan başqa, ölkə ərazisində vətəndaşsızlıq vəziyyətində yaşayan şəxslərin naturalizasiyasını asanlaşdırmaq məqsədilə Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 980-

VQD nömrəli Qanunu ilə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmişdir.

Həmin dəyişikliyə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda keçmiş SSRİ vətəndaşının pasportu və ya digər sənəd əsasında 2006-cı il yanvarın 1-dək Azərbaycan Respublikasına gələrək burada daimi yaşayan, heç bir dövlətin vətəndaşlığına mənsub olmayan və şəxsiyyətini təsdiq edən etibarlı sənədləri olmayan şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktının məhkəmə tərəfindən müəyyən edilməsi nəzərdə tutulmuşdur.

***Ölkə ərazisində vətəndaşsızlıq hallarının aradan qaldırılması istiqamətində hal-hazıradək hansı işlər görülmüş və bundan sonra nə kimi hədəflər vardır?***

- Dövlət Miqrasiya Xidməti vətəndaşsızlıq halları ilə mübarizə sahəsində məlumatlılığın artırılması və bu şəxslərin hüquqlarının səmərəli müdafiəsi naminə əməkdaşlığın gücləndirilməsi məqsədi ilə 28 aprel 2015-ci il tarixdən BMT QAK-ın "10 ilə vətəndaşsızlığa son" kompaniyası çərçivəsində qəbul etdiyi "Qlobal fəaliyyət planı"na qoşulmuşdur.

Dövlət Miqrasiya Xidməti tərəfindən vətəndaşlığı olmayan şəxslərin sənədləşdirilməsi istiqamətində görülmüş tədbirlər nəticəsində 2008-2020-ci illər ərzində (01 oktyabr 2020-ci ilədək) **1830** nəfər (övladları ilə birlikdə 1873 nəfər) vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmuşdur.

Bununla belə, bu müddət ərzində **162 min 308** şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti tanınıb və onlar müvafiq dövlət qurumu tərəfindən Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən sənədlərlə təmin edilmişdir.

Azərbaycan Respublikasında vətəndaşsızlıq hallarının qarşısının alınması və azaldılması, o cümlədən vətəndaşsızlıq vəziyyətində olan şəxslərin sənədləşdirilməsi istiqamətində ölkənin şəhər və rayonlarında Dövlət Miqrasiya Xidməti tərəfindən geniş maarifləndirmə tədbirləri həyata keçirilib. Bununla yanaşı, Xidmətin regional miqrasiya idarələrinin xətti ilə yerli icra hakimiyyəti orqanları ilə birlikdə çoxsaylı görüşlər təşkil olunub, izahedici söhbətlər aparılıb və sənədsiz yaşayan şəxslərin sənədləşdirilməsi istiqamətində müvafiq işlər görülmüşdür.

2016-2018-ci illər ərzində Azərbaycan Respublikasında qanunsuz yaşayan şəxslərin leqallaşdırılması məqsədilə Xidmətin regional miqrasiya idarələrinin xidməti ərazilərində çoxsaylı görüşlər və maarifləndirmə tədbirləri keçirilmiş və keçirilmiş görüşlər nəticəsində ümumilikdə **389** nəfər qəbul edilmişdir. Həmin şəxslərdən **194** nəfərin leqallaşdırılması istiqamətində işlər görülmüşdür.

Vətəndaşsızlıq hallarının aradan qaldırılması istiqamətində konkret işlər görülməsi, Dövlət Miqrasiya Xidməti tərəfindən respublikanın ayrı-ayrı bölgələrində vətəndaşsızlıqla bağlı çoxsaylı maarifləndirmə tədbirlərinin və görüşlərin keçirilməsi öz müsbət nəticəsini verir. Belə ki, istər vətəndaşlıq mənsubiyyətinin müəyyən olunması, istərsə də vətəndaşlığa qəbulla bağlı müraciətlərin sayı bunu deməyə əsas verir.

Görüləcək işlərlə bağlı isə bildiririk ki, 2019-cu ilin 7-11 oktyabr tarixlərində İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin 70-ci sessiyasında Azərbaycan Respublikası növbəti 3 (üç) il ərzində ölkə ərazisində qeydə alınmış vətəndaşlığı olmayan şəxslərin naturalizasiyasının təmin ediləcəyini qeyd etmişdir.

Bu məqsədlə ölkə ərazisində vətəndaşsızlıq hallarının aradan qaldırılması və qarşısının alınması istiqamətində müvafiq işlərin görülməsi sürətləndirilmişdir. Belə ki, ölkə ərazisində qeydə alınmış vətəndaşlığı olmayan şəxslərlə bağlı yekun siyahının dəqiqləşdirilməsi və növbəti 3 (üç) il ərzində onların naturalizasiyasının təmin edilməsi məqsədilə tərəfimizdən müvafiq təhlillər aparılmışdır. Belə ki, Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi ilə sənədləşdirilmiş 494 nəfərin ünvanlarına müvafiq məktublar göndərilərək Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı Dövlət Miqrasiya Xidmətinə müraciət etmələri tövsiyə olunmuşdur. Bu müddət ərzində 2019-cu il oktyabr ayının 7-dən hazıradək (18 dekabradək) Azərbaycan Respublikasında yaşayan və heç bir ölkənin vətəndaşı olmayan 143 şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı vəsatətləri icraata qəbul edilmişdir.Eləcə də, həmin müddət ərzində 52 nəfər Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi ilə təmin edilmiş şəxs, 34 nəfər isə vətəndaşsızlıq vəziyyətində olan şəxs (cəmi 86 nəfər) Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmuşdur.

Beləliklə, ölkə ərazisində vətəndaşsızlıq halları tam aradan qaldırılması üçün Dövlət Miqrasiya Xidməti tərəfindən bu istiqamətdə genişmiqyaslı işlərin davam etdirilməsi nəzərdə tutulmuşdur.

# Vətəndaşsızlığa Son Qlobal Fəaliyyət Planı: 2014-2024

## VƏTƏNDAŞSIZLIQ NƏDİR VƏ BU HALA NƏ ÜÇÜN SON QOYULMALIDIR?

Vətəndaşlığı olmayan şəxs o insandır ki, heç bir dovlətin qanununa əsasən olkə vətəndaşı hesab edilmir. Bütün dünyada ən azı 10 milyon insan ona vətəndaşlıq verilməsindən imtina edilməsi səbəbindən məhrumiyyətlərdən və alçaldıcı durumdan əziyyət cəkməkdə davam edir. Vətəndaşsızlıq halı muxtəlif səbəblərdən, o cumlədən muəyyən etnik və ya dini qruplara qarşı ayrı-seçkilik səbəbindən və ya cinsi mənsubiyyətə gorə baş verə bilər; yeni dovlətlərin yaranması və mövcud dovlətlərdən birinin ərazisinin digərinə kecməsi (dovlətlərin hüquq varisliyi); və vətəndaşlığa dair qanunvericilikdə ziddiyyətlərin olması da buna səbəb ola bilər.

Səbəbindən asılı olmayaraq vətəndaşsızlıq, demək olar ki, hər bir olkədə və dünyanın bütün bolgələrində insanlar üçün ciddi nəticələr doğurur. Vətəndaşlığı olmayan şəxslər çox zaman muxtəlif hüquqlarını, məsələn, şəxsiyyət sənədlərinə malik olmaq, məşğulluq, təhsil və səhiyyə xidmətlərindən istifadə hüquqlarını həyata kecirmək imkanından məhrum olurlar. Məcburən didərgin duşmə vətəndaşsızlıq durumuna gətirib çıxara bildiyi kimi, vətəndaşsızlıq durumu da məcburən didərgin duşməyə gətirib çıxara bilər. O həm də siyasi və sosial gərginliyə şərait yarada bilər. Sadəcə vətəndaşlıqları olmadığına gorə geniş əhali kutlələrinin cəmiyyətin həyatından kənarlaşdırılması və hüquqlarının rədd edilməsi dovlətlərin iqtisadi və sosial inkişafına xələl gətirə bilər.

Beynəlxalq hüquqa əsasən dovlətlər vətəndaşlığın əldə edilməsinə, dəyişdirilməsinə və vətəndaşlıqdan məhrum etməyə dair hüquqi normalarını muəyyən edirlər. Eyni zamanda, dovlətlərin vətəndaşlıq məsələsi ilə bağlı diskresion səlahiyyətləri onların tərəfdar çıxdıqları beynəlxalq muqavilələrdə, beynəlxalq adət hüququnda və beynəlxalq hüququn ümumi prinsiplərində nəzərdə tutulmuş ohdəlikləri vasitəsilə məhdudlaşdırılır. Apatridlərin statusu haqqında 1954-cü il Konvensiyası vətəndaşlığı olmayan şəxslər üçün beynəlxalq himayə rejiminin təməl daşıdır. Vətəndaşsızlıq hallarının azaldılması haqqında 1961-ci il Konvensiyasında vətəndaşsızlıq hallarının qarşısının alınması və azaldılması ilə bağlı konkret ohdəliklər muəyyən edilib.

Bundan əlavə, insan hüquqlarına dair muxtəlif sənədlərdə, fərqli ifadələrlə qeyd edilsə belə, vətəndaşlıq hüququ tanınır. Bu sənədlərə bunlar daxildir: İnsan hüquqları haqqında Ümumi Bəyannamə; Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt; İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya; Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya; Uşaq hüquqları haqqında Konvensiya; Bütün əməkci miqrantların və onların ailə uzvlərinin hüquqlarının qorunması haqqında Beynəlxalq Konvensiya; və Əlillərin hüquqları haqqında Konvensiya. Qlobal Fəaliyyət Planı bu beynəlxalq muqavilələrdə yer alan standartlara (normalara) əsaslanır.

## 10 İLƏ VƏTƏNDAŞSIZLIĞA SON

"Vətəndaşsızlığa Son Qlobal Fəaliyyət Planı: 2014 - 2024" sənədi BMT QAK-ın və digər maraqlı tərəflərin koməyi ilə aşağıdakı məqsədlərlə dovlətlər tərəfindən 10 fəaliyyətin həyata kecirilməsinin istiqamətlərini muəyyən edir:

- mövcud olan mühüm vətəndaşsızlıq situasiyalarını həll etmək;
- yeni vətəndaşsızlıq hallarının meydana çıxmasının qarşısını almaq; və
- vətəndaşlığı olmayan insanları daha yaxşı muəyyənləşdirmək və mudafiə etmək.

Qlobal Fəaliyyət Planında hər bir fəaliyyətlə bağlı mövcud məlumatlar və 10 il ərzində nail olunmalı hədəflər təqdim edilir. Planda həmçinin, "Dönüş nöqtəsi" bolümləri, yaxud başqa sözlə 2017-ci və 2020-ci illər üçün aralıq hədəflər yer alıb ki, bunda məqsəd hədəflərə çatmaq yolunda əldə edilən irəliləyişləri qeyd etməkdir. Bir sıra fəaliyyətlər qarşılıqlı surətdə əlaqəlidir. Buna gorə də bir fəaliyyətin hədəflərinə nail olunması qismən digər fəaliyyətin hədəflərinə nail olunmasına gətirib çıxara bilər. Ölkələr Milli Fəaliyyət Planlarını hazırlamaq və həyata kecirmək yolu ilə yuxarıdakı fəaliyyətləri həyata kecirməyə təşviq edilirlər. Bu Milli Fəaliyyət Planlarında seçilmiş fəaliyyətlərin yekunlaşdırılması üçün təfsilatlı strategiyalar muəyyən edilə və olkə səviyyəsində hədəflər və dönüş noqtələri təfsilatlı şəkildə gostərilə bilər. Milli Fəaliyyət Planlarının məsləhətləşmə prosesi vasitəsilə hazırlanması və bu məsləhətləşmələrdə BMT QAK-ın, digər BMT orqanlarının və beynəlxalq inkişaf təşkilatlarının və lazımi hallarda regional orqanların, habelə milli təsisatların (müvafiq nazirliklərin, parlamentin və s.), vətəndaş cəmiyyəti təşkilatlarının və vətəndaşlığı olmayan şəxslərin qruplarının iştirak etməsi tovsiyə olunur. Dövlətlər öz Milli Fəaliyyət Planlarına mütəmadi olaraq yenidən baxmağa təşviq edilirlər. Əlavə məlumat üçün baxın: BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK), Vətəndaşsızlığa Son Qlobal Fəaliyyət Planı, 4 Noyabr 2014, https://www.refworld.org/docid/545b47d64.html

### Vətəndaşsızlıq hallarına son qoymaq üçün 10 fəaliyyət

Dövlətlər, "2024-cü ilədək müvafiq hədəflərə çatmaq üçün aşağıdakı 10 fəaliyyətdən birini və ya bir necəsini həyata kecirməyə təşviq edilirlər. BMT QAK, BMT-nin digər orqanları və digər beynəlxalq qurumlar, regional təşkilatlar, vətəndaş cəmiyyəti və vətəndaşlığı olmayan insanlar hamısı müvafiq fəaliyyətlərin həyata kecirilməsi işində hokumətlərə dəstək gostərilməsində rol oynayırlar. Vətəndaşsızlıq hallarının səbəbləri, əhatə etdiyi qruplar və miqyası fərqli olduğuna gorə fəaliyyətlərin heç də hamısının bütün olkələrdə həyata kecirilməsi tələb olunmur.

1-ci fəaliyyət: Mövcud olan mühüm vətəndaşsızlıq situasiyalarının həll edilməsi

2-ci fəaliyyət: Heç bir uşağın vətəndaşlığı olmayan şəxs kimi doğulmamasının təmin edilməsi

3-cü fəaliyyət: Vətəndaşlığa dair qanunvericilikdən cinsi ayrı-seçkilik xarakterli müddəaların çıxarılması

4-cü fəaliyyət: Ayrı-seçkiliyə əsaslanan səbəblərə görə vətəndaşlıq verməkdən imtinanın, vətəndaşlığın itirilməsinin və ya vətəndaşlıqdan məhrum etmənin qarşısının alınması

5-ci fəaliyyət: Dövlətlərin hüquqi varisliyi baş verdiyi hallarda vətəndaşısızlığın qarşısının alınması

6-cı fəaliyyət: Vətəndaşlığı olmayan miqrantlara qoruyucu statusun verilməsi və naturalizasiyalarının asanlaşdırılması

7-ci fəaliyyət: Vətəndaşsızlıq hallarının qarşısını almaq üçün doğumun qeydiyyatının təmin olunması

8-ci fəaliyyət :Vətəndaşlıq sənədlərini almaq hüququ olanlara həmin sənədlərin verilməsi

9-cu fəaliyyət: BMT-nin vətəndaşsızlığa dair konvensiyalarına qoşulma

10-cu fəaliyyət: Vətəndaşlığı olmayan əhali barəsində kəmiyyət və keyfiyyət məlumatlarının təkmilləşdirilməsi

Azərbaycanda BMT QAK Dövlət Miqrasiya Xidməti və digər dövlət qurumları ilə yuxarida sadalanan fəaliyyət sahələrindən 1,2,3,7 və 10-cu fəailiyyətlər üzrə əməkdaşlıqda işləyir. Bu baxımdan 2015-2020-ci illər ərzində 200 nəfərdən çox vətəndaşlığı olmayan və vətəndaşsızlıq riskində olan insanlara pulsuz hüquqi yardımın verilməsini təmin etmiş, həssas quruplardan olan 100-dən çox şəxsin naturalizasiyasının asanlaşdırılması məqsədi ilə dövlət rüsumlarını və hüquqi hərəkətlər zamanı zərurət yaranan xərclərinin ödənilməsində köməklik göstərmişdir. Bununla yanaşı vətəndaşsızlıq riskində olan sənədsiz şəxslərin uşaqlarının təhsilə çıxışının təmin edilməsində də BMT QAK dövlət qurumları ilə birgə irəliləyişə nail ola bilmişdir.

# Azərbaycan BMT QAK-ın İcraiyyə Komitəsinin 70-ci sessiyasında




Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) İcraiyyə Komitəsinin 70-ci sessiyası ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi Rza Talıbov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sabir Əhmədov, Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin Vətəndaşlıq məsələlərinin həlli idarəsinin rəis müavini Elçin Məmmədov 2019-cu ilin 7-10 oktyabr tarixlərində İsveçrə Konfederasiyasının Cenevrə şəhərində səfərdə olmuşdurlar.

Sessiyada üzv dövlətlərin, müşahidəçi qismində İcraiyyə Komitəsinin üzvü olmayan ölkələrin nümayəndələri, BMT agentliklərinin və nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən qeyri-hökumət təşkilatların təmsilçiləri iştirak etmişlər.

Qeyd edilməlidir ki, Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasının 26 aprel 2012-ci il tarixli iclasında keçirilmiş səsvermə nəticəsində Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinə üzv seçilmişdir.



Sessiyanın ilk 3 günü vətəndaşsızlıq məsələləri üzrə yüksək səviyyəli seqmentə həsr olunmuşdur. Həmin seqment üzrə ümumi müzakirələrdə dövlətlər BMT QAK-ın “10 ilə vətəndaşsızlığa son” kompaniyası çərçivəsində qəbul et-

diyi “Qlobal fəaliyyət planı”nın qəbul olunmasından keçən 5 il ərzində görülmüş işlər, müvafiq istiqamətləri üzrə əldə olunmuş nailiyyətlər, həmçinin növbəti 5 ildə də bu sahədə dəqiq müəyyənləşdirilmiş zaman ərzində həyata keçirilməsi nəzərdə tutulan konkret tədbirlər barədə çıxışlar etmişdir.

Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi Rza Talıbov sessiyadakı çıxışında qeyd etmişdir ki, Azərbaycan Respublikası 1992-ci ildən başlayaraq vətəndaşsızlıq hallarının azaldılması ilə bağlı bir sıra beynəlxalq sənədlərə qoşulmuş və vətəndaşlığı olmayan şəxslərlə bağlı yaranan münasibətləri tənzimləyən çoxsaylı normativ sənədlər qəbul edilmişdir. Belə ki, 31 may 1996-cı ildə Azərbaycan Respublikası “Vətəndaşlığı olmayan şəxsin statusu”na dair 1954-cü il tarixli Konvensiyaya və “Vətəndaşsızlığın ixtisar edilməsi haqqında” 1961-ci il tarixli Konvensiyaya qoşulmuşdur. Sözügedən Konvensiyalardan irəli gələrək vətəndaşlıq haqqında Azərbaycan Respublikası qanunvericiliyi vətəndaşsızlıq hallarının qarşısının alınmasına yönələn zəruri hüquqi təminatlara malikdir. Məlum olduğu kimi, Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 250 min azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla qovularaq Azərbaycana pənah gətirmişdir. Vətəndaşlıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq həmin şəxslər birbaşa Azərbaycan Respublikasının vətəndaşı kimi tanınmışdırlar.

Həmçinin, ölkə ərazisində vətəndaşsızlıq vəziyyətində yaşayan şəxslərin naturalizasiyasını asanlaşdırmaq məqsədilə vətəndaşlıq haqqında Azərbaycan Respublikasının qanunvericiliyində müvafiq dəyişikliklər edilmişdir.

Vətəndaşlığı olmayan şəxslərin naturalizasiyası istiqamətində görülmüş tədbirlər nəticəsində 2008-2020-ci illər ərzində (01 oktyabr 2020-ci ilədək) ümumilikdə 1830 nəfər (övladları ilə birlikdə 1873 nəfər) vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmuş və 59 nəfər Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edilmişdir.

Rza Talıbov çıxışın sonunda Azərbaycan Respublikasının görülən işlərlə kifayətlənmədiyini və ölkə ərazisində rəsmi qeydə alınmış bütün vətəndaşlığı olmayan şəxslərin (son statistikaya əsasən 545 nəfər) növbəti 3 il ərzində naturalizasiyasının təmin edilməsi üçün zəruri tədbirlər görüləcəyini vəd etmişdir.

Ali Komissar Filippo Qrandi çıxışlara münasibət bildirərkən Azərbaycanda vətəndaşsızlıq sahəsindəki müsbət inkişafdan məmnun olduqlarını bildirmişdir.

# Vətəndaşsızlıq məsələləri ilə əlaqədar işçi qrupu



BMT QAK-ın Nazirlər Kabineti ilə Vətəndaşsızlığa dair İşçi Qrupunun yaradılmasına dair təşviqindən sonra Baş nazirin müavininin Vətəndaşsızlıqla İş üzrə Qrupun yaradılması ilə bağlı müvafiq tapşırığın dövlət orqanlarına göndərilməsi təmin edildi. İşçi Qrupunun (bundan sonra İG) əsas məqsədləri 2014-2024-cü illər ərzində Vətəndaşsızlığa Son Qlobal Fəaliyyət Planının, habelə 1992-ci ilədək vətəndaşlığı olmayan şəxs kimi tanınmış şəxslərin vətəndaşlıq almasını təmin etmək üçün Azərbaycan Hökuməti tərəfindən verilmiş vədin icrasına nəzarət, habelə vətəndaşsızlığın qarşısının alınması və aradan qaldırılması sahəsində müvafiq fəaliyyətlər barədə ölkədəki əsas dövlət qurumları arasında məlumat mübadiləsindən ibarətdir.

Fəaliyyəti Dövlət Miqrasiya Xidməti tərəfindən əlaqələndirilən "Vətəndaşsızlıq məsələləri ilə əlaqədar işçi qrupu"nun ilk iclası 22 sentyabr 2020-ci ildə onlayn formatda keçirilib. İşçi qrupunun tərkibində Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, İnsan hüquqları üzrə müvəkkil (ombudsman) və BMTQAK-ın Azərbaycandakı Nümayəndəliyi təmsil olunur.

İlk iclasda çıxış edən Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Rza Talıbov Nazirlər Kabinetinin tapşırığına əsasən yaradılan işçi qrupunun məqsədləri və vətəndaşsızlıq hallarının azaldılması ilə bağlı görülmüş işlərə dair məlumat verib. İşçi qrupunun ölkə üzrə vətəndaşsızlıq vəziyyətində olan şəxsləri aşkarlayaraq sənədləşdirmək üçün zəruri tədbirlər görəcəyinə əminliyini ifadə edib.

Onlayn tədbirdə, həmçinin BMTQAK-ın Azərbaycandakı nümayəndəliyinin hüquq şöbəsinin müdiri Oktavian Mohorea "Vətəndaşsızlıq" mövzusunda təqdimatla çıxış edib.

Daha sonra vətəndaşsızlıq hallarının aradan qaldırılması, habelə bu istiqamətdə məlumatlılığın artırılması üçün zəruri tədbirlər barədə müzakirələr aparılıb. Iclas zamani içtirakçılar İşçi qrupunun fəaliyyət qaydası layihəsini müzakirə edilərək razılaşdırmışlar.

# Azərbaycanda Vətəndaşsızığa son kompaniyası çərçivəsində görülmüş işlər



Dövlət Miqrasiya Xidməti tərəfindən vətəndaşlığı olmayan şəxslərin sənədləşdirilməsi istiqamətində görülmüş tədbirlər nəticəsində 2008-2020-ci illər ərzində **1830** nəfər (övladları ilə birlikdə 1873 nəfər) vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmuşdur. Belə ki,

- 2008-ci ildə 49 nəfər;
- 2009-cu ildə 65 nəfər;
- 2010-cu ildə 91 nəfər;
- 2011-ci ildə 104 nəfər (övladları ilə birlikdə 108 nəfər);
- 2012-ci ildə 161 nəfər (övladları ilə birlikdə 167 nəfər);
- 2013-cü ildə 196 nəfər (övladları ilə birlikdə 204 nəfər);
- 2014-cü ildə 186 nəfər (övladları ilə birlikdə 189 nəfər);
- 2015-ci ildə 181 nəfər (övladları ilə birlikdə 185 nəfər);
- 2016-cı ildə 117 nəfər (övladları ilə birlikdə 126 nəfər);
- 2017-ci ildə 378 nəfər (övladları ilə birlikdə 384 nəfər);
- 2018-ci ildə 67 nəfər;
- 2019-cu ildə 149 nəfər (övladları ilə birlikdə 152 nəfər);
- 2020-ci ildə (01 oktyabradək) 86 nəfər vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmuşdur.



Həmin şəxslərdən **21** nəfəri "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördün-

cü hissəsinə əsasən 2006-cı il yanvarın 1-dək Azərbaycan Respublikasına gələrək burada daimi yaşaması və heç bir dövlətin vətəndaşlığına mənsub olmaması faktı məhkəmə tərəfindən müəyyən edilmiş şəxslərdir.

Hazırda Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı müraciət etmiş **134** nəfər vətəndaşlığı olmayan şəxsin vəsatətinə aidiyyəti üzrə baxılır (**51** vətəndaşlığı olmayan, **83** vətəndaşlığı naməlum). Bunlardan **119** nəfərin vəsatəti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasında, **15** nəfərin vəsatəti isə Dövlət Miqrasiya Xidmətindədir.

Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı müraciət etmiş **44** nəfərin 110 manat dövlət rüsumları BMT QAK-ın Azərbaycandakı Nümayəndəliyi tərəfindən ödənilmişdir. Həmin **44** nəfərdən **37** nəfər Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunub, **5** nəfərin vəsatəti Komissiya tərəfindən rədd edilib, **2** nəfərin vəsatəti baxılması üçün Komissiyaya göndərilmişdir.

“Regional miqrasiya idarələrinin əhatə etdiyi ərazilərdə yaşayan vətəndaşsızlıq vəziyyətində olan şəxslərin müəyyən edilməsi və onların sənədləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi ilə əlaqədar Dövlət Miqrasiya Xidmətinin Tədbirlər Planı”na uyğun olaraq, Azərbaycan Respublikasında qanunsuz yaşayan şəxslərin leqallaşdırılması məqsədilə Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Rza Talıbovun rəhbərliyi ilə Azərbaycan Respublikasında vətəndaşsızlıq hallarının azaldılması və vətəndaşsızlıq vəziyyətində olan şəxslərin sənədləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi ilə əlaqədar 2018-ci ilin 06 mart tarixində Xaçmaz rayonunda, 26 aprel tarixində Şirvan şəhərində, 27 aprel tarixində İsmayıllı rayonunda, 30 may tarixində Gəncə və Yevlax şəhərlərində, 29 iyun tarixində Qax rayonunda və 27 iyul tarixində Lənkəran şəhərində tədbirlər keçirilmişdir.

Tədbirlərdə şəhər və rayonların icra hakimiyyətlərinin başçıları və əməkdaşları, regional miqrasiya idarəsinin rəisləri və işçiləri, prokurorluq orqanlarının, məhkəmə, daxili işlər orqanlarının, ədliyyə orqanlarının, yerli icra hakimiyyəti orqanlarının, kütləvi informasiya vasitələrinin, bələdiyyələrin nümayəndələri, həmçinin BMT QAK-ın Azərbaycandakı nümayəndəliyinin əməkdaşları və vətəndaşsızlıq vəziyyətində olan şəxslər iştirak etmişdirlər.



06 mart 2018-ci il tarixdə Xaçmaz regional miqrasiya idarəsi üzrə ***Xaçmaz şəhərində*** görüş keçirilmişdir.

Həmin görüş zamanı vətəndaşsızlıq vəziyyətində olan 18 nəfər Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin əməkdaşları tərəfindən qəbul edilmişdir.

26 aprel 2018-ci il tarixdə Şirvan regional miqrasiya idarəsi üzrə Şirvan şəhərində görüş keçirilmişdir.

Həmin görüş zamanı vətəndaşsızlıq vəziyyətində olan 14 nəfər Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin əməkdaşları tərəfindən qəbul edilmişdir.





27 aprel 2018-ci il tarixdə Ağsu regional miqrasiya idarəsi üzrə İsmayıllı şəhərində görüş keçirilmişdir.

Həmin görüş zamanı vətəndaşsızlıq vəziyyətində olan 10 nəfər Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin əməkdaşları tərəfindən qəbul edilmişdir.

30 may 2018-ci il tarixdə Gəncə regional miqrasiya idarəsi üzrə ***Gəncə şəhərində*** görüş keçirilmişdir.

Həmin görüş zamanı vətəndaşsızlıq vəziyyətində olan 8 nəfər Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin əməkdaşları tərəfindən qəbul edilmişdir.





30 may 2018-ci il tarixdə Yevlax regional miqrasiya idarəsi üzrə ***Yevlax şəhərində*** görüş keçirilmişdir.

Həmin görüş zamanı vətəndaşsızlıq vəziyyətində olan 18 nəfər Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin əməkdaşları tərəfindən qəbul edilmişdir.

29 iyun 2018-ci il tarixdə Şəki regional miqrasiya idarəsi üzrə ***Qax şəhərində*** görüş keçirilmişdir.

Həmin görüş zamanı vətəndaşsızlıq vəziyyətində olan 5 nəfər Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin əməkdaşları tərəfindən qəbul edilmişdir.






27 iyul 2018-ci il tarixdə Lənkəran regional miqrasiya idarəsi üzrə ***Lənkəran şəhərində*** görüş keçirilmişdir.

Həmin görüş zamanı vətəndaşsızlıq vəziyyətində olan 7 nəfər Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin əməkdaşları tərəfindən qəbul edilmişdir.

# Azərbaycanda vətəndaşlığı olmayan şəxslərlə müsahibələr

Dünyaya gələn hər insanın yolu özü ilə bərabər doğulur, bəlkə də özündən əvvəl. Kimi yolunu özü müəyyənləşdirir, kiminin yolunu tale... Qəhrəmanlarımın həyat hekayəsi fərqli olsa da, yollarının kəsişdiyi məkan eynidir. Azərbaycan. Onları daha yaxından tanıdacağıq. Bu məqsədlə çıxdığımız yolda ilk dayanacağımız Salyan şəhəri oldu.

Məxri Əzizovanın evindəyik. Məxrinin anası 1994-cü ildə Türkmənistan vətəndaşı ilə ailə qurub və bir il sonra Məxri dünyaya gəlib. Ailənin yeganə övladıdır. 5 yaşında ikən anası ilə birgə Azərbaycana pənah gətirib. Sonrasını həmsöhbətim belə xatırlayır:



**Məxri Əzizova:** "Bakıda olarkən anam bütün sənədlərini itirdi. Bircə mənim doğum haqqında şəhadətnaməm qaldı. Daha sonra o, infarkt keçirdi və yataq xəstəsi oldu. Elə həmin vaxtdan təhsilimi yarımçıq saxlayıb işləməyə başladım. 12 yaşım var idi. Cəmi 4 sinif oxumuşdum. Hüquqşünas olmaq ən böyük arzum idi. Artıq heç vaxt reallaşdıra bilməyəcəyim arzum. Həyatın bütün çətinlikləri ilə çarpışaraq yetkinlik yaşıma çatdım. Problemlərim də özümlə bərabər böyüyürdü. İşləmək üçün sənəd tələb olunurdu. Bu mənim sonrakı həyatımı da qəlizləşdirirdi. 2015-ci ildə ailə həyatı qurdum. Lakin nikaha daxil ola bilmədim. Övladım dünyaya gələndə məni xəstəxanaya qəbul etmirdilər. Qızım ürək qüsurlu doğulduğundan onun əməliyyatı zamanı da bir çox çətinliklərlə üzləşdim. Sənədsiz yaşamaq asan məsələ deyil. Vətəndaşlıq almaq üçün müraciət edirdim, lakin anamın sənədlərini istəyirdilər. Sonra mənə Dövlət Miqrasiya Xidmətindən köməklik göstərdilər. Bütün qaydalar izah olundu. Çox sağ olsun Prezidentimiz. Dövlət başçısının imzaladığı sərəncamla mən də Azərbaycan vətəndaşı oldum".

Məxri artıq Azərbaycan vətəndaşı olmağının sevincini yaşayır. Azərbaycanın tamhüquqlu vətəndaşı kimi bundan sonra onun arzularının, gələcək planlarının qarşısını kəsən heç nə yoxdur.

**Məxri Əzizova:** "Sənədlərim olmadığı vaxtlarda çəkdiyim bütün əziyyətlərin əvəzini çıxmaq istəyirəm. Sənədi olmayanlara demək istəyirəm ki, vaxtında bu işin üstünə düşsünlər. Əks halda, bir çox istəkləri yarımçıq qalacaq".

Tatyana Xarçenko da 29 ildir Azərbaycanı özünə Vətən edib. O, Qazax rayonunda yaşayır. 1976-cı ildə Belqradda anadan olub. Sonralar ailəsi ilə birlikdə Ukraynanın Xarkov şəhərinə köçüb.



Tatyana Xarkovda 8-ci sinfə qədər təhsil alır. Sonra həyat yoldaşı ilə tanış olur. 1991-ci ildə ölkəmizə gələndə yalnız doğum haqqında şəhadətnaməsi vardı. 1996-cı ildə Ukraynaya qayıdıb, bir müddət ailəsi ilə orada yaşasa da, 1998-ci ildə yenidən Azərbaycana gəlirlər. Bu onun Ukraynaya son səfəri olur. Uzun illər sənədsiz yaşayır. Belə yaşayış tərzi Tatyananın nisgilini artırmaqla yanaşı, gündəlik həyatını da çətinləşdirir.

**Tatyana Xarçenko:** "Həkimə gedə bilmirdim, banklara müraciət edə bilmirdim. 1 oğlum, 1 qızım var. Sənədlərimin olmaması onlara təhsildə çətinlik yaradırdı. Oğlum hərbçi olmaq istəyirdi, o da alınmadı. Arzularım çox idi. Rusiyaya gedib anamı, qardaşlarımı görmək istəyirdim. Atam və anam dünyalarını dəyişdilər, gedə bilmədim. 5 ildir qızım Rusiyada yaşayır, onu görə bilmirəm. Nəvəmi hələ də qucağıma almamışam. İşləmək istəyirdim. Sənədim yox idi deyə qəbul etmirdilər. Məhdudiyyətlər çox idi".

Tatyana qəriblik hissindən və ürəyindəki qubardan qurtulmaq üçün vətəndaşlıq almağın vacibliyini hiss edir. O Dövlət Miqrasiya Xidmətinə müraciət edir. Hər dəfə ümidsizliyə qapılan Tatyana üçün bu son sınaq olur. Prezident İlham Əliyevin 27 fevral 2020-ci il tarixli sərəncamı ilə Tatyana Xarçenko, Azərbaycan vətəndaşlığına qəbul edilir.

**Tatyana Xarçenko:**"Çox sevindim. Ümidim artdı. Artıq istədiyim vaxt Rusiyaya, qızımın, qardaşımın yanına gedə biləcəyimi düşünəndə hönkürüb ağladım. Şəxsiyyət vəsiqəmi götürəndə isə hiss etdim ki, atamın, anamın məzarını ziyarət etmək üçün qarşımda heç bir maneə qalmayıb. Yaxın vaxtlarda arzularımı reallaşdırmağı düşünürəm. Və hər kəsə tövsiyə edirəm. Arzularınızın arxasınca gedin. Çünki mən də bu yolda inanıb addımladım".

İnam güclü hissdir. Çox vaxt keçilməzləri keçilən edir. Digər həmsöhbətim Əliyar Əliyev Gürcüstanda anadan olub. 1990-cı ildən Balakənin Talalar kəndində yaşayır. Onun bütün sənədləri Gürcüstandakı evlərində baş verən yanğın zamanı məhv olub. Və bununla da həyatın keşməkeşli anları başlayıb.

**Əliyar Əliyev:** "Ailəmi dolandırmaq üçün işləməli idim. Lakin heç bir yerdə işə düzələ bilmirdim. Övladlarımın yanında da başıaşağı olurdum. Daha sonra fəhləlik etməyə, həmçinin təsərrüfatla məşğul olmağa başladım.



Övladlarım yoldaşımın adında idi. Özümü həmişə kimsəsiz, yad hiss edirdim. Hazırda anam və bacılarımdan biri bunun əziyyətini çəkirlər. Digər bacım isə mənimlə eyni vaxtda vətəndaşlıq aldı. Vətəndaşlıq əldə edəndə o qədər sevindim ki, bəlkə də heç vaxt, heç nəyə bu qədər sevinməmişdim. Sanki möcüzə idi. Sənədi götürüb özümü tez evə çatdırmaq istəyirdim.... Bundan sonra yarımçıq qalan arzularımı həyata keçirəcəyəm. Artıq mən Azərbaycan vətəndaşı kimi Qarabağ uğrunda döyüşüb şəhid olmağa hazıram".

Növbəti müsahibimiz Azərbaycan vətəndaşı Tofik İsmayılovdur. Tofik Qəşəm oğlu İsmayılov 26 il Şamaxı rayonunun Mədrəsə kəndində sənədsiz yaşayıb.

**Tofiq İsmayılov:**"1970-ci ildə Gürcüstanda anadan olmuşam. 23 yaşım var idi Azərbaycana gələndə. Ötən ilə qədər vətəndaşlığım yox idi. Əvvəllər sürücü kimi fəaliyyət göstərmişəm. Sürücülük vəsiqəmi Gürcüstanda almışdım. Etibarlılıq müddəti bitdiyindən gedib dəyişə bilmirdim. Məcbur olub fəhləlik edirdim. Bir gün iş olurdu, bir gün olmurdu. Məni ən çox incidən isə övlad həsrəti idi. Rusiyada yaşayan övladımı, nəvələrimi görə bilmirdim. Dövlət Miqrasiya Xidmətinə müraciət etdim. Mənə vətəndaşlıq almağın yollarını izah etdilər. Artıq Azərbaycan vətəndaşıyam. Bundan sonra torpaqlarımızın azadlığı uğrunda canımdan keçməyə hazıram".



Azərbaycan vətəndaşı olması xəbərini aldığı günü isə belə xatırlayır:

**Tofiq İsmayılov:**"Heç yadımdan çıxmaz. Zəng gəldi ki, sizi təbrik edirik, artıq Azərbaycan vətəndaşısınız. Dedim, bəlkə bu bir zarafatdır. Soruşdum ki, nə vaxt gələ bilərəm. Dedilər ki, 4 gündən sonra. Amma mən o qədər səbrsizləndim ki, səhəri gün şəxsiyyət vəsiqəmi götürməyə getdim. 30 ildir gözləyirdim. 4 gün gözləyə bilmərəm dedim".

Gürcüstanda anadan olan İbrahimxəlil Qasımov isə 30 ildir İsmayıllı rayonunun Ruşan kəndində məskunlaşıb. Hərbi biletini itirdiyindən xeyli vaxt vətəndaşlıq almaq üçün müraciət edə bilməyib.

**İbrahimxəlil Qasımov:**
"Sənədsiz olmaq insanı kimsəsiz, evində özünü dustaq kimi hiss etdirir. Heç bir yerə gedə bilmirsən.



İndiyədək normal bir işim də olmayıb. Bilirdim ki, işləyə bilmərəm. Torpaq almışdım adıma sala bilmirdim. Övladlarım analarının adında idi. Sənədlərimi qaydaya salmaq uzun müddət tələb edirdi. Artıq sevinirəm ki, Azərbaycan vətəndaşıyam. Bundan sonra münasib bir iş tapıb işləyəcəm".

Qəhrəmanlarımın izləri bizi fərqli bölgələrə, müxtəlif ünvanlara götürdü. Onları Azərbaycana gətirən səbəblər ayrı olsa da, bura bağlayan sevgi eynidir. Müxtəlif dəyər və mədəniyyətlərin bir bayraq altında qorunduğu bu məkanda faydalı olmağa can atırlar.

**Kifayət Sadiqova:**"Gürcüstanın Marneuli rayonunun Kosalı kəndində anadan olmuşam. 22 il orada yaşamışam. 1991-ci ildə Azərbaycana gəlib ailə həyatı qurmuşam. Elə o vaxtdan vətəndaşlığı olmayan şəxs kimi yaşamışam. O qədər əziyyət çəkmişəm ki, saymaqla bitməz".



Qazax rayonunun ucqar Aslanbəyli kəndinə taleyini bağlayan Kifayət Sadiqova daha çox övladlarının təhsil və karyera imkanlarını məhdudlaşdırdığına görə peşmanlıq çəkir.

**Kifayət Sadiqova:** "Övladlarımı məktəbə götürmürdülər. Sonralar onların işlə bağlı problemləri yarandı. Çox əziyyət çəkmişəm. 20 ildir atamın evinə getmirəm (red. ağlayır). Bu məni doğulduğum torpaqdan da soyudub. Vətəndaşlıq aldıqdan sonra dövlətin ayırdığı yardımlardan yararlana bildim. Gələcəkdə təqaüd almaq baxımından da çox yaxşıdır. Mən artıq özümü şəxsiyyət kimi hiss edirəm. Mənimlə eyni durumda olan şəxslərə demək istəyirəm ki, gecikdirmədən sənədlərini qaydasına salsınlar".

The biggest regret of Kifayat Sadhigova, who settled in a remote Aslanbayli village in Gazakh was that her stateless issue had limited education and career opportunities of her children.

